DOI: https://doi.org/10.36719/2663-4619/85/80-85

**Zemfira Mətləb qızı Həsənova**
Azərbaycan Respublikasının Prezidenti yanında
Dövlət İdarəçilik Akademiyası
magistrant
h.zenfira662@gmail.com
**Nəzrin Həzi qızı Tağıyeva**
Azərbaycan Respublikasının Prezidenti yanında
Dövlət İdarəçilik Akademiyası
magistrant
tagiyevaa.nezrinn@gmail.com
**Kifayət Qoşqar qızı Heydərova**
Azərbaycan Respublikasının Prezidenti yanında
Dövlət İdarəçilik Akademiyası
magistrant
heyderovakifayet2000@gmail.com

# AZƏRBAYCANIN YUMŞAQ GÜCÜNÜN FORMALAŞDIRILMASI VƏ ARTIRILMASI İMKANLARI

**Xülasə**

Məqalədə Azərbaycan Respublikasında yumşaq güc instrumentləri və onların formalaşdırılması təhlil edilir. Dövlət siyasətində yumşaq gücün tətbiq edildiyi sahələr işıqlandırılır. Həmçinin Azərbaycanın “yumşaq güc” imkanları qiymətləndirilərək onun artırılması mexanizmlərinə nəzər salınmışdır. Müstəqilliyin bərpasından sonra belə qısa müddət ərzində Azərbaycanın həyata keçirdiyi önəmli qlobal təşəbbüslər sayəsində ölkənin “yumşaq güc”ü formalaşmışdır. Dövlətimizin beynəlxalq sistemdə fəal aktorlardan birinə çevrilməsi də əks olunmuşdur. Məqalədə ölkəmizin beynəlxalq səviyyəli tədbirlərə ev sahibliyi etməsi, neft siyasəti, mədəni dəyərlərimizin bir parçası olan multikulturalizm, ictimai diplomatiya, edilən humanitar yardımlar Azərbaycanın “yumşaq güc”ünün əsas elementləri kimi qiymətləndirilmişdir. Eyni zamanda, 44 günlük Vətən müharibəsindən qalib dövlət kimi çıxmış Azərbaycan beynəlxalq arenada yeni reallıqlar yaradaraq dünya ictimaiyyətinin diqqətini özünə cəlb etməyi bacarmışdır. Bununla da, ölkəmizə olan maraq daha da artmışdır.

***Açar sözlər:*** *yumşaq güc, diplomatiya, multikulturalizm, incəsənət, mədəniyyət, idman, turizm*

**Zemfira Matlab Hasanova**
Under the President of the Republic of Azerbaijan
Academy of Public Administration
master student
h.zenfira662@gmail.com
**Nazrin Hazi Taghiyeva**
Under the President of the Republic of Azerbaijan
Academy of Public Administration
master student
tagiyevaa.nezrinn@gmail.com
**Kifayat Goshgar Haydarova**
Under the President of the Republic of Azerbaijan
Academy of Public Administration
master student
heyderovakifayet2000@gmail.com

# Possibilities of forming and increasing Azerbaijan's soft power

## Abstract

The article analyzes soft power instruments and their formation in the Republic of Azerbaijan. Areas where soft power is applied in state policy are highlighted. Azerbaijan's "soft power" capabilities have also been evaluated and the mechanisms of its increase have been considered. After the restoration of independence, the "soft power" of the country was formed thanks to the important global initiatives carried out by Azerbaijan in such a short period of time. The transformation of our state into one of the active actors in the international system was also reflected. In the article, our country's hosting of international level events, oil policy, multiculturalism, which is a part of our cultural values, public diplomacy, and humanitarian aid are evaluated as the main elements of Azerbaijan's "soft power". At the same time, Azerbaijan, which came out of the 44-day Patriotic War as a victorious state, managed to attract the attention of the world community by creating new realities in the international arena. With that, the interest in our country has increased even more.

***Keywords:*** *soft power, diplomacy, multiculturalism, art, culture, sports, tourism*

## Giriş

Beynəlxalq mühitin dəyişən xarakterini və artan dövlətlərarası rəqabəti nəzərə alaraq deyə bilərik ki, bütün dövlətlər üstünlük əldə etməyə çalışırlar. Öncəki başlıqlarda da vurğuladığımız kimi, 1990-cı illərin əvvəllərində baş verən hadisələr, xüsusilə SSRİ-nin dağılması və birqütblü dünya sisteminin yaradılması siyasətçilərdən yeni konsepsiya və ideyalar irəli sürməyi tələb etdi və bu məqamda beynəlxalq ictimaiyyətdə böyük təəssürat yaradan yumşaq güc fenomeni artıq dünya dövlətlərinin xarici siyasətinin əsasını təşkil etməyə başladı. Bu kontekstdə, 1991-cı ildə öz müstəqilliyini bərpa etmiş Azərbaycan Respublikası dövlət siyasətində yumşaq güc elementlərindən geniş şəkildə istifadə etməkdədir. Əminliklə deyə bilərik ki, Azərbaycan müstəqilliyini elan etdikdən sonra qısa müddət ərzində regionda öz geosiyasi və geoiqtisadi əhəmiyyətini artırmaqla yanaşı, həm də "yumşaq güc" subyektinə çevrilmişdir.

Azərbaycanın dövlət siyasətində yumşaq gücün tətbiqi imkanlarından danışsaq, ilk öncə qeyd etməliyik ki, ölkəmizin müxtəlif dinlər və mədəniyyətlərin dostluq şəraitində yaşamasına imkan verən tolerant və multikultural bir ərazi olması və xalqımızın sahib olduğu milli, mədəni, tarixi xəzinə ölkəmizin yumşaq güc potensialının əsasını təşkil edir. Şərq və Qərb sivilizasiyalarının kəsişməsində yerləşdiyinə görə Azərbaycan uzun əsrlər boyu müxtəlif mədəniyyət və sivilizasiyalarla qarşılıqlı əlaqədə olmuşdur. Bu baxımdan, ölkəmizin tarixinə nəzər salsaq, qədim yunan mədəniyyəti, əhəməni, islam, türk və slavyan mədəniyyəti kimi müxtəlif mədəniyyətlərin izlərini görmək mümkündür. Eyni zamanda, Azərbaycan müxtəlif dinlərin − İslam, Xristianlıq və Yəhudiliyin birgə mövcud olduğu dinc bir ölkədir.

Şərqi Avropa və Qərbi Asiya arasında yerləşən Azərbaycan sosial-siyasi konteksti nəzərə alaraq xarici siyasətin strateji aləti kimi multikultural gündəliyi qəbul etmişdir. Bu baxımdan, Azərbaycanın yumşaq gücünün ən təsirli vasitələrindən biri multikulturalizm və tolerantlıqdır. Dövlətimiz bu anlayışları Konstitusiyanın müvafiq maddələri və hüquqi aktlarla tənzimləyir. O cümlədən, Azərbaycan Konstitusiyasının 48-ci maddəsində dini etiqad azadlığı göstərilir. Tarixən bir çox etnik və dini qruplar azərbaycanlılarla birlikdə yaşayıb və hal-hazırda da yaşamaqdadır. Bu gün Azərbaycanda 941 qeydiyyatdan keçmiş dini icma mövcuddur, hansı ki onlardan 35-i qeyri-islam dini icmasıdır (1) və hazırda ölkəmizdə 13 kilsə, 7 sinaqoq fəaliyyət göstərir (2). Bundan əlavə, yəhudilər, kürdlər, farsdilli tatarlar, gürcü mənşəli ingiloylar, udilər, avarlar, saxurlar, ləzgilər, talışlar, qaraçılar və digər azsaylı xalqlar multikulturalizm və tolerantlığın göstəricisi olan dinc mühitdə yaşayırlar. Bunun bariz sübutlarından biri ABŞ-ın Yuta və Oreqon ştatlarının bəyanatlarında Azərbaycanın tolerantlıq modeli kimi tanınmasıdır (3). UNESCO-nun "Mədəni özünüifadə müxtəlifliyinin qorunması və təşviqi haqqında" 20 oktyabr 2005-ci il tarixli

Konvensiyasına əsasən Azərbaycanda yaşayan milli azlıqların və etnik qrupların mədəniyyətinin, incəsənətinin, adət-ənənələrinin və dilinin qorunub saxlanılması istiqamətində məqsədyönlü iş aparılır. Bundan başqa, 2014-cü ildə ölkənin etnik, dini və mədəni müxtəlifliyini qorumaq və Azərbaycanı multikulturalizm mərkəzi kimi tanıtmaq missiyası ilə Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi yaradılmışdır. Bu sahədə atılan ən önəmli addımlardan biri də Azərbaycan Respublikası Prezidentinin 11 yanvar 2016-cı il tarixli Sərəncamı ilə multikulturalizmin daha da inkişaf etdirilməsi və təbliği məqsədilə 2016-cı ilin Azərbaycanda "Multikulturalizm ili" elan edilməsi olmuşdur.

Azərbaycanın müxtəlif vaxtlarda Avropa, İslam dünyası və ya beynəlxalq səviyyəli mühüm iqtisadi, siyasi və mədəni tədbirlərə ev sahibliyi etməsi ölkəmizin imicinin yüksəldilməsinə mühüm təsir göstərmişdir. Eyni zamanda, ölkəmizdə regionda rolunun artırılması məqsədilə dinlərarası və mədəniyyətlərarası dialoqa dair bir sıra yüksək səviyyəli beynəlxalq tədbirlər keçirilib. Onların arasında Birləşmiş Millətlər Təşkilatının Sivilizasiyalar Alyansının VII Qlobal Forumunu qeyd etmək olar.

Azərbaycanın Cənubi Qafqaz regionunda güclü iqtisadiyyata sahib bir ölkə kimi liderə çevrilməsi dövlətimizin müəyyənləşdirdiyi uğurlu neft strategiya sayəsində mümkün olmuşdur. Eyni zamanda, Azərbaycan beynəlxalq müstəvidə də neft ölkəsi olaraq tanınır və bu ölkəmizin yumşaq gücünün əsas komponentlərindən biri sayılır. Sözsüz ki, ölkəmizin neft strategiyasının uğurla həyata keçirilməsində və dünyada tanınmasında dünya brendinə çevrilən SOCAR-ın rolu danılmazdır. Təsadüfi deyil ki, dünyanın istənilən ölkəsində Azərbaycan deyiləndə ilk öncə ağıla SOCAR brendi gəlir. Bu brend dünya bazarlarına təkcə ölkəmizin neft və qazını ixrac etmir, həm də Azərbaycanın mədəni dəyərlərini və iqtisadiyyatını bütün dünyada tanıdır. SOCAR həyata keçirdiyi bir çox regional və qlobal təşəbbüslər, eyni zamanda, yatırdığı beynəlxalq investisiyalar sayəsində xaricdə perspektivli bir şirkət olaraq tanınır və bu da ölkəmizin imicinə öz müsbət təsirini göstərir.

Humanitar yardımlar yumşaq gücün ən təsirli elementlərindən biridir. Belə ki, bu vəziyyət həm yardım alan ölkələrdə, həm də beynəlxalq ictimaiyyətdə yardım edən ölkənin imicinə böyük töhfə verir. Azərbaycanın da digər ölkələrə göstərdiyi humanitar yardımlar onun yumşaq gücünün önəmli bir vasitəsi hesab oluna bilər. Respublikamız son illər humanitar yardım siyasətinin önəmli aktorlarından birinə çevrilib. Bu yardımların bir çoxu isə AİDA tərəfindən həyata keçirilir. AİDA (Azərbaycan Beynəlxalq İnkişaf Agentliyi) 2011-ci ilin sentyabrında Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin nəzdində yaradılmışdır. AİDA Azərbaycanın beynəlxalq humanitar yardım fəaliyyətini digər ölkələrdə təbliğ etmək, eləcə də, müxtəlif problemlərin həllində beynəlxalq ictimaiyyətin verdiyi səylərə dəstək vermək məqsədilə yaradılıb. Yarandığı gündən AİDA dünyanın müxtəlif bölgələrinə humanitar yardım və maliyyə dəstəyi göstərmişdir. Hazırda Azərbaycanın humanitar yardım göstərdiyi ölkələrin sayı 90-ı ötüb (4). Qeyd etmək yerinə düşərdi ki, Azərbaycan son vaxtlar baş verən Ukrayna-Rusiya müharibəsi nəticəsində yaranmış böhranla bağlı Ukrayna xalqına humanitar yardım məqsədilə müxtəlif ərzaq məhsulları, tibbi vasitələr, dərman preparatları göndərib. Ümumilikdə isə ölkəmizin Ukraynaya göstərdiyi humanitar yardımın məbləği 27,6 milyon manat təşkil edir (5). Bundan başqa, Azərbaycan müxtəlif vaxtlarda baş vermiş təbii fəlakətlər, sosial-iqtisadi problemlər və s. ilə bağlı digər ölkələrə də yardımlar edib.

Yumşaq güc resurslarından səmərəli istifadəni ictimai diplomatiya adlandırmaq olar. Cozef Naya görə bu resurslardan diplomatiyada səmərəli istifadə ölkənin yumşaq gücünə böyük təsir göstərir (Nye, 2004:11). Cəlbedici güc olaraq adlandırılan yumşaq güc yalnız ictimai diplomatiyanın düzgün qurulması ilə həyata keçirilə bilər. Eyni zamanda Cozef Nayın yumşaq gücü cəlb etmək üsulu ilə digər dövlətləri inandıraraq xarici siyasət hədəflərinin həyata keçirilməsinə əsaslanır (Nye, 2011:21). Bu mənada, Azərbaycan Xarici İşlər Nazirliyinin nəzdindəki Mətbuat Xidmətini "İctimai diplomatiya" departamentə çevirə bilər. Təbii ki, bu cür dəyişiklik ekspertlər tərəfindən hazırlanmış ictimai diplomatiya strategiyasını tələb edəcəkdir. Bu strategiya və kampaniyalar xüsusi siyasi məqsədlərə nail olmaq üçün məqsədyönlü və düşünülmüş şəkildə və uzunmüddətli və ya qısamüddətli olmaqla hazırlanmalıdır. Bundan başqa, Azərbaycanın xaricdə

populyarlığı müxtəlif təhsil, mədəniyyət, elm, idman, ictimai layihələr vasitəsilə gücləndirilə bilər (Aghazada, 2013:225).

Eyni zamanda, diasporaların, korporasiyaların, sosial qruplar və təşkilatların, ictimai xadimlərin, yaradıcı insanların və hətta adi vətəndaşların birgə fəaliyyətini ehtiva edən effektiv ictimai diplomatiya Azərbaycanın rəsmi diplomatik siyasəti ilə birləşərək həqiqətləri dünya ictimaiyyətinə çatdırmaqda önəmli rol oynamalıdır (Aghazada, 2013:223). Bu baxımdan, beynəlxalq təşkilatlarla, o cümlədən, BMT, İslam Əməkdaşlıq Təşkilatı, Avropa Şurası, NATO, Avropa Birliyi, UNESCO və digərləri ilə çoxtərəfli əməkdaşlığın qurulması ölkənin xarici siyasətinin vacib bir hissəsidir.

Günümüzdə diaspor anlayışı beynəlxalq münasibətlərin vacib komponentinə çevrilib. Millətlərarası sürətli inteqrasiya prosesləri, diaspor və lobbi təşkilatlarının beynəlxalq siyasətdə rolunun artması bu sahədə daha geniş fəaliyyətin aparılmasını zəruri edir. Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsi, o cümlədən, ABŞ-da və digər ölkələrdə fəaliyyət göstərən Azərbaycan diaspor təşkilatları ölkənin xarici siyasətinin müvafiq ölkələrdə təbliği üçün ictimaiyyətlə əlaqələr təcrübəsindən geniş istifadə edir. Ümumiyyətlə, Azərbaycanın ictimai diplomatiyası dövlət rəsmilərinin, alimlərin, jurnalistlərin, rejissorların və digərlərinin əlaqələndirilmiş səylərini tələb edir. Əgər Azərbaycan digər ölkələrin ictimaiyyətinə ictimai diplomatiya yolu ilə təsir etmək istəyirsə, yüksək keyfiyyətli tədqiqatlara, kitablara, filmlərə və digər vasitələrə nail olmalıdır. Bundan əlavə, dövlət məmurları da ölkənin beynəlxalq imicini poza biləcək hərəkətlərdən çəkinməli, sürətli inkişafın yarada biləcəyi təhlükənin qarşısını almaq üçün dinc və sülhsevər imic yaratmağa çalışmalıdırlar (Lee, 2009:207-208).

Son illər Azərbaycan mədəni festivallar və humanitar forumların keçirildiyi bir ölkəyə çevrilib. 2009-cu ildən etibarən Qəbələdə keçirilən və müxtəlif Avropa musiqisi, caz və milli muğamımızın birgə səsləndirildiyi musiqi festivalları bunun bariz nümunəsidir. Elə həmin il ilk Beynəlxalq Muğam Festivalı keçirilmiş və səhnədə muğam ifaçıları və ənənəvi şərq musiqisi ifaçıları birlikdə çıxış etmişlər. İki ildə bir dəfə keçirilən bu dünya miqyaslı festival "Muğam dünyası" adlı elmi simpoziumla müşayiət olunur və bununla da, dünya musiqi xəzinəsinin tərkib hissəsi kimi Şərqin musiqi ənənələrinin nəzəri cəhətdən öyrənilməsinə mühüm töhfə verir (Aghalarova, 2019:49). Azərbaycanın 2012-ci ildə "Avroviziya" mahnı yarışmasına ev sahibliyi etməsi də milli-mənəvi dəyərlərimizin və incəsənətimizin təbliği, ölkəmizin daha da tanıdılması istiqamətində növbəti vacib addım idi.

2016-cı ildə Heydər Əliyev Fondunun və Arzu Əliyevanın rəhbərliyi ilə çəkilən "Əbədi ezamiyyət" sənədli filmi və Qurban Səidin romanı əsasında çəkilmiş "Əli və Nino" bədii filmi müsəlman şərqində ilk demokratik dövlət olan Azərbaycan Xalq Cümhuriyyəti haqqında məlumatların dünya ictimaiyyətinə çatdırılmasında səmərəli vasitədir. Eyni zamanda, mədəni diplomatiya sahəsində həyata keçirilən digər tədbirlər sırasında Leyla xanım Əliyevanın təşəbbüskarı olduğu bir sıra layihələr, məsələn, London və Moskva kimi şəhərlərdə böyük əks-səda doğuran Azərbaycanın müasir incəsənətini təbliğ edən "Fly to Baku" sərgisi və "Bakı" jurnalının rus və ingilis dillərində nəşr olunması və mədəniyyətlərarası ünsiyyət sahəsində digər maraq doğuran incəsənət layihələrini qeyd edə bilərik.

Azərbaycan idman diplomatiyasından da çox məharətlə istifadə edir; belə ki, bir sıra genişmiqyaslı idman tədbirlərinə uğurla ev sahibliyi etmək yumşaq gücün artırılması və müsbət imicin formalaşdırılması istiqamətində təsirli vasitədir. 2015-ci ildə I Avropa Oyunlarının ölkəmizdə təşkil edilməsi yumşaq güc amili kimi nəzərdən keçirilə bilər. Bu oyunların Azərbaycanda təşkili ilə ölkəmiz Şərq və Avropa mədəni dəyərlərinin inteqrasiyasına töhfə vermiş oldu. Yarışların davam etdiyi müddət ərzində Azərbaycan qapılarını 6000-dən çox idmançıya və 10.000-dən çox turistə açıb. Ölkəmizin erməni idmançılarını da bu oyunlara dəvət etməsi və onlara normal münasibət göstərilməsi Azərbaycanın yumşaq güc siyasətində önəmli bir addım idi. 2017-ci ildə ölkəmizdə IV İslam Həmrəyliyi Oyunlarının yüksək səviyyədə, böyük məharətlə təşkil olunması Azərbaycanın beynəlxalq yarışları keçirməyə qadir bir ölkə olduğunu bir daha sübut etdi. Eyni zamanda, bu, Azərbaycanın islam ölkələri ilə olan əməkdaşlığının daha da

möhkəmləndirməsində mühüm rol oynadı. Bunlarla yanaşı 42-ci Şahmat Olimpiadasının və “Formula-1” yarışlarının Bakıda baş tutması idman diplomatiyasının həyata keçirilməsi baxımından müstəsna əhəmiyyətə malikdir, çünki bu yarışlara uğurla ev sahibliyi etmək ölkəmizin yumşaq güc potensialının yüksəldilməsinə, beynəlxalq arenada nüfuzunun artırılmasına və müsbət imic aşılanmasına böyük təkan verir. Bir sözlə, Azərbaycanın idman diplomatiyasının reallaşdırılması istiqamətində atdığı bütün bu mühüm addımlar ölkəmizin milli maraqlarının və xarici siyasət məqsədlərinin həyata keçirilməsinə xidmət edir. Turizm öz təbiətinə görə bir ölkənin yumşaq gücünə töhfə verə biləcək mühüm sahələrdən biridir. Mədəniyyətin yumşaq güc elementi kimi istifadə olunması turizmdən ayrı təsəvvür edilə bilməz, çünki mədəniyyətdən yumşaq güc aləti kimi faydalanmağın ən yaxşı yolu mədəniyyəti turizm məhsuluna çevirmək və turizm yolu ilə tanıtmaqdır (Jamgoz, Dincher, 2017:287). Turizmin yumşaq güc faktoru kimi əhəmiyyəti xüsusilə bir ölkəyə qarşı digər xalqlarda müəyyən qərəz varsa, daha qabarıq şəkildə ortaya çıxır. Bu kontekstdə işğalçı Ermənistanın yaydığı dezinformasiyalara görə Qərb ictimai rəyi tərəfindən qərəzlə qarşılanan Azərbaycanın qlobal sistemdə cazibə mərkəzi kimi yer alması üçün turizm böyük əhəmiyyət kəsb edir. Azərbaycana gələn turistlər bir tərəfdən ölkənin təbii gözəlliklərini, qədim tarixini, mədəni zənginliklərini beynəlxalq ictimaiyyətə daha yaxşı tanıtdırır, bununla da, gələcəkdə Azərbaycana investisiya yatırımlarına töhfə verirlər. Beləliklə, Azərbaycan turizm sayəsində beynəlxalq aləmdə həm iqtisadi, həm də siyasi cəhətdən güc qazana bilər.

Gözəllikləri ilə cənnətə bənzədilən, qədim zamanlardan bəri türk yurdu olan Qarabağ bölgəsi həm də mədəniyyət abidələri, ədəbiyyat, incəsənət və musiqi əsərləri ilə olduqca zəngindir. Qarabağın coğrafiyası, qeyri-maddi mədəni irsi, zəngin bitki örtüyü, qədim tarixi yumşaq güc mənbəyi kimi istifadə oluna bilər. Bu bölgələrdə artıq dövlətimiz turizmin inkişafı üçün yenidənqurma işlərinə başlamış və ölkə rəhbərliyinin tapşırığı ilə bu ərazilərin turizm inkişaf strategiyası hazırlanmışdır. O cümlədən, yüksək turizm potensialına malik olan Qarabağda müxtəlif turizm növlərinin (sağlamlıq turizmi, qış turizmi, ekoturizm və s.) təşkil edilməsi gözləniləndir. Sözsüz ki, Qarabağda aparılan bərpa-quruculuq işlərindən sonra turizmin inkişafı ilə birlikdə bölgəyə turist axını daha da sürətlənəcək (12).

Azərbaycanın müharibə dövründə “sərt güc”lə işğaldan azad etdiyi torpaqları sülh dövründə “yumşaq güc” mərkəzinə çevirməsi həm ölkəmizin iqtisadi qüdrətinə töhfə verəcək, həm də işğaldan azad edilmiş şəhərlərə səfər edəcək xarici turistlər Qarabağın, o cümlədən, Azərbaycanın mədəni sərvətləri ilə daha yaxından tanış olacaqlar. Eyni zamanda, bu turistlər öz ölkələrinə qayıtdıqdan sonra əldə etdiyi məlumatları digər insanlara ötürə və sosial şəbəkələrdə paylaşaraq Azərbaycan mədəniyyətinin və sivilizasiyasının bütün dünyada tanınmasına təsir edə bilərlər. Bununla da, turizm Azərbaycanın yumşaq güc instrumenti olaraq bütün dünyanın Qarabağı cazibə mərkəzi kimi görməsində mühüm rol oynayacaq. Təsadüfi deyil ki, Prezident İlham Əliyevin Sərəncamına əsasən 2022-ci il “Şuşa ili” elan edilmişdir.

## Nəticə

Bəşər tarixinin başlanğıcından bəri inkişaf edən hər şey kimi müharibənin də xarakter və formaları təkamülə uğramış və dəyişmişdir. Texnoloji nailiyyətlər, hərb sahəsindəki inkişaf və qloballaşmanın təsiri ilə dövlətlərin və qeyri-dövlət aktorlarının müharibə aparma yolları və səbəbləri dəyişikliyə məruz qalmışdır. Müharibənin təbiəti dəyişdiyi kimi dövlətlərin tətbiq etdiyi “güc” qavramı da təkamülə uğramış, hərbi vasitələrlə (“sərt güc”) yanaşı qeyri-hərbi vasitələr, o cümlədən, “yumşaq güc” dünya siyasətində önəm qazanmışdır. Bu kontekstdə Azərbaycanın yumşaq güc potensialına və bu istiqamətdə atdığı addımlara dair təhlil aparılmış və onun artırılması imkanları səciyyələndirilmişdir. 44 günlük Vətən müharibəsindəki qələbədən sonra beynəlxalq müstəvidə Azərbaycana artan diqqət və maraq səbəbilə ölkənin cəlbedici imicinin formalaşdırılması baxımından “yumşaq güc”dən səmərəli istifadə xüsusilə aktuallıq kəsb etməyə başlayıb. Bu mənada, ölkəmizin “yumşaq güc”ünün artırılmasında Qarabağın cazibə mərkəzinə çevrilərək mədəniyyətimizin və tarixi həqiqətlərin dünya birliyinin diqqətinə çatdırılması mühüm əhəmiyyət kəsb edəcəkdir.

## Ədəbiyyat

1. https://azerbaijan.az/en/related-information/87
2. https://multiculturalism.preslib.az/en_a4.html
3. https://azertag.az/en/xeber/Oregon_State_Legislature_commends_Azerbaijan_039s_exemplary_model_of_interfaith_tolerance_and_harmony-930291
4. https://aida.mfa.gov.az/az/static/1/
5. https://apa.az/az/xarici-siyaset/azerbaycan-ukraynaya-novbeti-humanitar-yardim-gonderib-foto-yenilenib-699253
6. Nye, J. (2004). Soft Power: The Means to Success in World Politics. https://www.academia.edu/28699788/Soft_Power_the_Means_to_Success_in_World_Politics_Joseph_S_Nye_Jr
7. Nye, J. (2011). The Future of Power. https://www.academia.edu/23946693/THE_FUTURE_OF_POWER
8. Aghazada, R. (2013). Searching for a New Foreign Policy Strategy for Azerbaijan: Public Diplomacy Efforts. European Scientific Journal.
9. Lee, G. (2009). A Theory Of Soft Power And Korea’s Soft Power Strategy. The Korean Journal Of Defense Analysis.
10. Aghalarova, G. (2019). Azerbaijan’s cultural diplomacy: at the service of national interests. https://aida.mfa.gov.az/en/articles_centenanry/279/
11. Jamgoz, C., Dincher, I. (2017). An evaluation of the use of tourism as a soft power in Turkey in today's international relations. (https://www.researchgate.net/publication/316861997_Gunumuz_Uluslararasi_Iliskilerinde_Turizmin_Turkiye'de_Yumusak_Guc_Olarak_Kullanilmasina_Yonelik_Bir_Degerlendirme)
12. https://www.azerbaijan-news.az/index.php/az/posts/detail/qarabagin-zengin-turizm-potensiali-var-1644093605

**Rəyçi: s.e.ü.f.d. Cahangir Cahangirli**

Göndərildi: 11.09.2022 Qəbul edildi: 29.11.2022